# Enerji gündəliyimiz çoxşaxəli əməkdaşlığa açıqdır




***Azərbaycanın xarici siyasət fəlsəfəsinin əsasını çoxvektorlu və balanslaşdırılmış yanaşma təşkil edir. Bu yanaşma Bakının eyni anda həm Qərb, həm Rusiya, həm də regional qonşularla konstruktiv münasibətlər qurmasına imkan verir. Rəsmi Bakı heç bir siyasi blokun və ya ittifaqın təsiri altına düşmədən milli maraqlara söykənən siyasət həyata keçirir. Avropa İttifaqı, NATO, BMT və İslam Əməkdaşlıq Təşkilatı kimi müxtəlif coğrafi və siyasi məkanları əhatə edən qurumlarla əməkdaşlığı uğurla davam etdirir. Bu kontekstdə Azərbaycanın sülhə və əməkdaşlığa əsaslanan siyasəti regionda sabitliyin qorunmasında mühüm rol oynayır.***

Dövlətimizin xarici siyasət strategiyasının mühüm dayaqlarından biri enerji siyasətidir. Ölkəmizdə enerji resurslarının rasional istifadəsi və beynəlxalq bazarlara çıxarılması istiqamətində uzunmüddətli və sistemli strategiya formalaşdırılıb. Bu strategiya təkcə iqtisadi gəlirlər deyil, həm də siyasi diversifikasiya imkanları yaradıb. Müstəqilliyin ilk illərində imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq enerji xəritəsində yerini müəyyənləşdirib, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və nəhayət, Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin reallaşması ilə Azərbaycan ixracatçı və etibarlı tərəfdaş kimi tanınıb. Bu gün Azərbaycan artıq 10-dan çox Avropa ölkəsinə təbii qaz ixrac edir. İtaliya, Yunanıstan, Bolqarıstan, Macarıstan və Rumıniya ölkəmizin enerji sahəsində strateji tərəfdaşlarıdır. Xüsusilə Avropa İttifaqının Rusiya qazından asılılığı azaltmaq məqsədilə alternativ mənbələr axtardığı indiki dövrdə ölkəmizin qaz ehtiyatları və nəqliyyat infrastrukturu kritik əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "yaşıl enerji" strategiyası, xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan olunması enerji portfelini şaxələndirməyə imkan yaradır. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Avropa şirkətləri ilə imzalanan günəş və külək enerjisi layihələri Azərbaycanın enerji keçidini sürətləndirir. COP29 kimi mühüm tədbirin Bakıda keçirilməsi, Azərbaycanın iqlim dəyişmələri ilə mübarizədə qlobal təşəbbüslərə dəstək verdiyini və liderlik ambisiyasını sübut edir.

Enerji resursları ilə zəngin olan, dünyada neft və qaz ixracatçısı kimi tanınan Azərbaycan son illərdə bərpaolunan enerji mənbələrini daha çox inkişaf etdirir. Bu addım iqlim dəyişmələri ilə mübarizə və dayanıqlı inkişaf hədəfləri baxımından strateji əhəmiyyət daşıyır. Ölkəmizin bu istiqamətdəki siyasəti həm milli, həm də beynəlxalq öhdəliklər fonunda sistemli şəkildə formalaşdırılır və icra olunur. Azərbaycan bərpaolunan enerji mənbələri baxımından yüksək potensiala malikdir. Rəsmi məlumatlara əsasən, quruda texniki potensial 135 QVt, dənizdə texniki potensial 157 QVt, külək enerjisi 3000 MVt, günəş enerjisi 23 000 MVt, bioenerji 380 MVt, dağ çayları üzrə hidroenerji 520 MVtdır. Bu göstəricilər Azərbaycanın enerji xəritəsində yalnız ənənəvi enerji mənbələri ilə deyil, həm də alternativ enerji imkanları ilə ön sıralarda yer aldığını göstərir.

**(davamı 7-ci səhifədə)**

# Enerji gündəliyimiz çoxşaxəli əməkdaşlığa açıqdır

(əvvəli 1-ci səhifədə)




Enerji siyasətinin əsas hədəflərindən biri də bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsidir. Bu məqsədlə Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılıb. Agentliyin fəaliyyəti bu sahədə idarəetmənin mərkəzləşdirilməsinə və koordinasiyalı şəkildə aparılmasına xidmət edir. 2021-ci ilin 31 may tarixində qəbul edilən "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Qanun isə bu sahənin hüquqi bazasını möhkəmləndirərək investisiyalar üçün daha sabit və şəffaf mühit formalaşdırıb.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bərpaolunan enerji ayrıca strateji xətt kimi müəyyənləşdirilib. "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" adlı beşinci prioritetdə vurğulanan istiqamətlərə uyğun olaraq isə iqlim dəyişmələri ilə mübarizədə effektiv



tədbirlər, enerji sistemində "yaşıl keçid"in təmin olunması, alternativ və bərpaolunan enerji texnologiyalarının geniş tətbiqi, enerji səmərəliliyinin artırılması məsələləri mühüm yer tutur. Bu sənəd, eyni zamanda Azərbaycanın BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" çərçivəsində qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə (SDG) uyğun fəaliyyətini də koordinasiya edir. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları "yaşıl enerji zonası" elan olunmaqla bu ərazilərdə bərpaolunan enerji layihələrinin icrasına start verilib. Günəş və külək enerjisi baxımından zəngin olan bu bölgələrdə aparılan kameral tədqiqatlar nəticəsində müvafiq yerlər müəyyənləşdirilib, prioritet sahələr üzrə layihələndirmə işləri başlayıb. Hazırda xarici investorlarla birlikdə həyata keçirilən layihələr, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri ilə əməkdaşlıq Azərbaycanın "yaşıl enerji" bazarına real kapital axınını təmin edir.

Bundan əlavə, 2023-cü ilin 26 oktyabrında istifadəyə verilən "Qaradağ" Günəş elektrik stansiyası bu istiqamətdə yeni mərhələnin başlanğıcıdır. Həm texniki göstəricilərinə, həm də strateji əhəmiyyətinə görə bu layihə təkcə Azərbaycanın deyil, bütün Xəzər regionunun və MDB məkanının günəş enerjisi üzrə ən böyük sənaye miqyaslı layihəsidir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində gerçəkləşən layihə tamamilə xarici sərmayə hesabına 262 milyon ABŞ dolları dəyərində reallaşdırılıb. Layihənin xarici investisiya ilə icra olunması Azərbaycanın "yaşıl enerji" bazarına beynəlxalq marağın bariz göstəricisidir. 230 MVt gücündə olan stansiyada hər il təxminən 500 milyon kilovatsaat elektrik enerjisi istehsal ediləcək ki, bu da 110 milyon kubmetr həcmində təbii qazın qənaət edilməsinə şərait yaradacaq. 200 min ton karbon emissiyasının azaldılması ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə üzərinə götürdüyü öhdəliklərə verdiyi ciddi töhfə kimi dəyərləndirilir.

İyunun 2-4-də keçirilən 30-cu Yubiley "Bakı Enerji Həftəsi" çərçivəsində təşkil olunan tədbirlər Azərbaycanın enerji siyasətinin beynəlxalq səviyyədə nüfuzunu bir daha nümayiş etdirdi. 30-cu Yubiley Xəzər Neft və Qaz Sərgisi - "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi - "Caspian Power" və 30-cu "Baku Energy Forum" ölkəmizin enerji diplomatiyasının strateji gücünü ortaya qoyur.

Böyük Britaniyanın "ICA Events" şirkətinin İdarə Şurasının müşaviri Tomas Hord tədbirin açılışındakı çıxışında vurğuladı ki, 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə keçirilən ilk sərgi və "Əsrin müqaviləsi" Azərbaycanın qlobal enerji bazarına daxil olmasında mühüm dönüş nöqtəsi idi. O gündən bu yana Bakı Enerji Həftəsi enerji sektorunun qlobal tendensiyalarını müzakirə edən nüfuzlu platformaya çevrilib.

"Bakı Enerji Həftəsi" çərçivəsində Azərbaycanın enerji tarixində daha bir mühüm hadisə baş verdi: Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsi olan "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi üçün yekun investisiya qərarı elan edildi. Bu, həm texnoloji irəliləyiş, həm də regional enerji sabitliyi baxımından strateji əhəmiyyətə malikdir. 2,9 milyard ABŞ dolları həcmində sərmayə cəlb edilən ŞDK layihəsi "Şahdəniz" yatağının işlənməsinin üçüncü və davamlı mərhələsi olmaqla, əsas məqsədi yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını hasilata cəlb etmək və yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Bu texnoloji yanaşma Azərbaycanın dəniz enerji resurslarının daha dərin və uzunmüddətli işlənməsi üçün yeni imkanlar açır. Layihə üzrə təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barel kondensat hasil ediləcəyi gözlənilir. Bu həcmlər Azərbaycanın həm daxili tələbatının qarşılanmasına, həm də Avropa və digər beynəlxalq bazarlara ixrac potensialının artmasına töhfə verəcək. Layihə çərçivəsində Xəzər dənizində quraşdırılacaq yeni elektriklə işləyən və heyətsiz kompressiya platforması regionda dəniz energetikasında ilk texnoloji yanaşma olacaq. Bu platforma üzərində dörd ədəd 11 meqavatlıq kompressor yerləşdiriləcək və bu qurğu "Şahdəniz Alfa" (ŞDA) və "Şahdəniz Bravo" (ŞDB) platformalarından hasil edilən qazın kompressiya olunaraq Səngəçal terminalına ötürülməsində əsas mərkəz funksiyasını daşıyacaq. Layihənin fərqləndirici cəhətlərindən biri də yerli resurslara və işçi qüvvəsinə əsaslanmasıdır. Tikinti işlərinin 2025-ci ilin sonlarında başlanması və 2029-cu ildə başa çatması planlaşdırılır. Bu müddətdə təxminən 4 minə yaxın iş yerinin yaradılması gözlənilir.

"Şahdəniz Kompressiya" layihəsi Avropanın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, Azərbaycanın iqlim öhdəliklərinə uyğun olaraq daha effektiv və enerjiyə qənaət edən texnologiyaların tətbiqini də ön plana çəkir. Platformanın elektriklə işləməsi emissiyaların azaldılmasına xidmət edəcək və COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın "yaşıl transformasiya"ya sadiqliyini nümayiş etdirəcək.

"Şahdəniz Kompressiya" layihəsi Azərbaycanın enerji sektorunun gələcəyinə investisiyadır. Texnoloji mükəmməllik, uzunmüddətli hasilat strategiyası, beynəlxalq əməkdaşlıq və yerli iqtisadiyyata fayda bu layihənin əsas sütunlarıdır. Dənizin dərinliklərindən hasil ediləcək əlavə qaz və kondensat həcmindən daha önəmlisi, bu layihənin Azərbaycanın enerji xəritəsində dayanıqlılıq və tərəqqi simvoluna çevrilməsidir. Ənənəvi enerji resursları ilə paralel şəkildə bərpaolunan enerji sektorunu da inkişaf etdirməsi ölkəmizin uzunmüddətli enerji təhlükəsizliyini təmin etmək baxımından strateji qərardır. Bu, həm də Azərbaycanın postneft dövrünə hazırlığını, iqlim çağırışlarına cavab vermək bacarığını və enerji diplomatiyasını balanslaşdırmaq bacarığını nümayiş etdirir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**







